Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

1933-cü ildən nəşr olunur

№ 52-53 (7289-7290) ✲ Cümə axşamı, 30 iyul 2015-ci il ✲ Qəzet ayda 4 dəfə çıxır ✲ Qiyməti 40 qəpik

# Prezident İlham Əliyevin Milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurası idarə heyətinin üzvləri ilə görüşü

Ötən həftə, iyul ayının 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin Milli Mətbuatının yaranmasının 140 illiyi münasibətilə Mətbuat Şurası idarə heyətinin üzvləri ilə görüşmüşdür. Dövlət başçısı əvvəlcə Mətbuat Şurası üzvlərini salamlamış, sonra geniş nitq söyləmiş və bütün Azərbaycan xalqını Milli Mətbuatın 140 illik yubileyi münasibətilə təbrik etmişdir. Bu gözəl və şərəfli bayram ərəfəsində 200-ə yaxın mətbuat işçisini sərəncamla orden, medal və fəxri adlarla təltif etdiyini qeyd edən Prezident milli mətbuatın 140 illik yubileyinin böyük və əlamətdar tarixi bayram olduğunu demişdir. Bu tarix həqiqətən bizim böyük sərvətimiz və dəyərimizdir.

Cənab Prezident demişdir: "Ancaq bu da bir həqiqətdir ki, müstəqillik dövründə Azərbaycan mətbuatı tam azad və müstəqil mətbuat kimi fəaliyyət göstərməyə başlamışdır". Xüsusilə 1998-ci ildə Prezident Heydər Əliyevin tarixi fərmanı ilə senzuranın ləğv olunması mətbuat üçün yeni dövr açmış və Azərbaycan mətbuatı tam şəkildə azad mətbuat kimi fəaliyyət göstərməyə başlamışdır.





Daha sonra dövlət başçısı Mətbuat Şurasının yarandığı 12 il ərzində keçdiyi yoldan, onun fəaliyyətindən danışmış Şuranın fəaliyyətini qiymətləndirmişdir. Ötən illər ərzində cənab Prezidentin dediyi kimi azad mətbuat artıq formalaşmış və uğurla fəaliyyət göstərməyə başlamışdır. Bu isə demokratiyanın əsas əlamətlərindən biridir. İndi Azərbaycanda yüzlərlə qəzet, jurnal, əllidən artıq televiziya və radio kanalı fəaliyyət göstərir. Bu gün bütün dünyada, bəzi bölgələrdə yaşanan böhranlara baxmayaraq, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir, insanların rifah halı yaxşılaşır. Çünki aparılan siyasətin mərkəzində Azərbaycan dövlətinin, Azərbaycan vətəndaşının maraqları dayanır. Cənab Prezident qeyd etdi ki, bu maraqlar bizim üçün hər şeydən üstündür. Həmçinin milli dəyərlərimiz də bizim üçün hər şeydən üstündür. Nitqinə davam edən dövlət başçısı qeyd etdi ki, mətbuatımız artıq yüksək səviyyəyə qalxıbdır. Mən həm operativlik, həm milli maraqların müdafiə edilməsi sahəsində mətbuatın fəaliyyətini yüksək qiymətləndirirəm.

Daha sonra XXI əsri informasiya əsri adlandıran Prezident Qərb Mətbuatı ilə Azərbaycan Mətbuatının müqayisəli inkişaf amillərinə toxundu, qarşıda duran vəzifələri, eyni zamanda bəzi mətbu orqanların ölkəmizə qarşı qərəzli mövqe tutmalarını açıqladı. Belə hallara qarşı mətbuat daim hazır olmalıdır— dedi.

Cənab Prezident çıxışında Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, erməni təbliğatının ifşası kimi məsələlərə də toxundu və çıxışını bu sözlərlə bitirdi: "Biz hamımız çalışırıq və çalışacağıq ki, ölkəmizi daha da gücləndirək. Azərbaycan xalqının daha da yaxşı rifahını təmin edək. Əlbəttə ki, burada həm iqtidarın üzərinə böyük funksiya, həm də mətbuatın üzərinə vəzifə düşür".

Görüşdə Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış edərək Milli Mətbuatın tarixi mərhələsinin yaşandığı bu günlərdə media nümayəndələrini qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirmiş, onun yubiley sevincini media təmsilçiləri ilə bölüşməyini böyük fəxarət saymışdır.

Ə. Amaşov çıxışında Azərbaycan Milli Mətbuatının 140 il ərzində keçdiyi inkişaf mərhələlərindən danışmış, ümummilli lider Heydər Əliyevin və müasir mərhələdə ölkə başçısı İlham Əliyevin Milli mətbuatın inkişafına göstərdikləri qayğılara toxunmuş, qarşıda duran bəzi problemlərin həlli üçün təkliflərini söyləmişdir.

Mətbuat Şurasının sədri sonda cənab Prezidentə Şuranın mükafatlarını təqdim etmişdir.

Dövlət başçısı mükafatlarla bağlı görüş iştirakçılarına təşəkkürünü bildirmiş və qaldırılan məsələlərlə bağlı lazımi tədbirlər görüləcəyini vəd etmişdir.

Mərasimdə Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvü, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, Mətbuat Şurası sədrinin müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu çıxış etmişlər.

Azərbaycan Prezidenti İlham Əliyev görüşdə iştirak edən və sərəncamla təltif olunan bir neçə Mətbuat Şurası üzvünə dövlət mükafatını şəxsən özü təqdim etmişdir.

Sonda görüş iştirakçıları ilə xatirə şəkli çəkdirilmişdir.